Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 86 (1214) 11 may - 12 may 2016-cı il

# Tarixin özü - Qobustan

*(əvvəli ötən saylarımızda)*

**"... Bu gün bizim gözəl ölkəmizdə - sürətlə inkişaf edən ölkədə hər bir vətəndaş üçün bütün imkanlar var. Çünki ölkəmizin dinamik inkişafı, yeni iş yerlərinin, yeni istehsalat sahələrinin açılması əlbəttə ki, hər kəs üçün imkan yaradır. O insanlar ki, böyük biliklərə malikdirlər, onlar həyatda öz layiqli yerini tuta bilərlər".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Qobustan rayonunda əhalinin sağlamlığının qorunması istiqamətində də tədbirlər davam etdirilir. Bu il də əhalinin tibbi müayinəsinə başlanılıb. Rayon icra hakimiyyətinin başçısı A.Məmmədovun sözlərinə görə, bu günə kimi 23265 nəfər tibbi müayinədən keçmişdir. Artıq demək olar ki, müayinə yekunlaşmaq üzrədir: "Cənab Prezidentin hər bir sakinin ildə bir dəfə pulsuz tibbi müayinədən keçirilməsi tələbi çox mühüm əhəmiyyətə malikdir. Əhali ilə görüşlərdə sakinlər dəfələrlə bu mühüm tədbirə görə möhtərəm Prezidentə öz dərin minnətdarlıqlarını bildirmişlər. Cənab Prezidentin təşəbbüsü ilə "ASAN" xidmət artıq bölgələrdə olaraq əhaliyə nümunəvi xidmətlər göstərir. 08.02.2016-cı il tarixdən 07.03.2016-cı il tarixə kimi səyyar "Asan xidmət" rayonumuzda olmuşdur. 1 ay ərzində xidmətə müraciət etmiş 1500-dən atıq vətəndaşa xidmət göstərilmişdir".

Rayonda tikinti-quruculuq və abadlıq işlərinin də sürətlə davam etdirildiyini deyən A.Məmmədov bu ilin birinci rübündə Qobustan şəhərində və kəndlərdə 4597 ədəd müxtəlif növ ağaclar və qızılgül kolları əkildiyini bildirmişdir: "Rayonumuzun ərazisində "Polad" Yol Yapı Şirkəti tərəfindən Bakı-Şamaxı yolunun 4 zolağa genişləndirilməsi istiqamətində mühüm işlər görülür. Qobustan şəhərində daxili imkanlar hesabına inşa edilən 100 yerlik uşaq bağçasında işlər tamamlanmaq üzrədir. Cəyirli kəndində daxili imkanlar hesabına 800 metrlik qara örtüklü yol çəkilmişdir.Yaxın vaxtlarda Nabur və Cəmcəmli kəndlərində yolun cari təmirinə başlanılması nəzərdə tutulur.

Bu ilin birinci rübündə idman sahəsində də əhəmiyyətli uğurlarımız olmuşdur.- Cüdoçularımız 2016-cı ilin ilk günlərindən inamlı start götürmüşlər. Perspektivli cüdoçü Mirzəyev Babarəhim 11-13 yanvar 2016-cı il tarixlərində 2004-2005-ci il təvəllüdlü yeniyetmələr arasında cüdo üzrə Bakı şəhər açıq birinciliyində II yeri, 08-11 fevral 2016-cı il tarixlərində yeniyetmələr (2004-2005-ci il təvəllüdlü) arasında cüdo üzrə Azərbaycan birinciliyində isə III yeri tutmuşdur.

B.Mirzəyev və onun komanda yoldaşı Məhəmməd Nəbiyev 16 - 18 mart 2016-cı il tarixlərində Tovuz şəhərində "Novruz bayramı" münasibəti ilə təşkil olunmuş 1999/2001 və 2002/2004 təvəllüdlü yeniyetmələr arasında cüdo turnirində inamla yarışaraq I yerə layiq görülmüşlər. Babarəhim Mirzəyev 01-04 aprel 2016-cı il tarixdə Türkiyə Respublikasının Adana şəhərində Türkdilli dövlətlərin Beynəlxalq turnirində də I yerə layiq görülmüşdür.

Ağır atletlərimiz də ötən ilki nailiyyətləri uğurla davam etdirmişlər. Rayon UGİM-in yetirməsi V.Səfərov 11-14 fevral 2016-cı il tarixində keçirilmiş ağır atletika üzrə kişilər və qadınlar arasında respublika çempionatında ağır çəki dərəcəsində III yeri tutmuşdur.

Daha kiçik yaşlı ağır atletlərimiz isə 18-22 fevral 2016-cı il tarixlərində İsmayıllı şəhərində keçirilmiş Yeniyetmələrin X Respublika Oyunlarının proqramına daxil olan ağır atletika yarışında uğurla çıxış etmişlər. Ayrı-ayrı çəki dərəcələrində Səfərov Şamo I, Quliyev Rəhman II, Sahibov Həsənağa, Mədətov Nicat və Qurbanov Ruslan III yerə layiq görülmüşlər.

İdarənin nəzdində fəaliyyət göstərən İdman məktəbinin sərbəst güləş bölməsinin yetirmələri 05-06 mart 2016-cı il tarixlərində Sumqayıt şəhərində keçirilmiş "05 Mart - Bədən tərbiyəsi və İdman günü"nə həsr olunmuş sərbəst güləş üzrə 2001-2002-ci il təvəllüdlü yeniyetmələr arasında açıq birincilikdə inamla yarışaraq, 3 qızıl, 4 gümüş və 2 bürünc medalla, komanda hesabında II olmuşlar.

Yeniyetmə və gənc karate ustaları 12 - 13 mart 2016-cı il tarixlərində keçirilmiş karate üzrə uşaqlar, yeniyetmələr, gənclər və qızlar arasında Bakı şəhər açıq birinciliyində qüvvələrini sınamış və 9 qızıl, 4 gümüş, 3 bürünc medal qazanaraq, komanda hesabında I yeri tutmuşlar.

Ölkəmizin sürətli sosial-iqtisadi inkişafı, aparılan islahatlar, respublikamızın hər yerində olduğu kimi rayonumuzdakı quruculuq-abadlıq işləri, kənd təsərrüfatı sahəsində görülən işlər bizdə əminlik yaradır ki, 2016-cı ili yüksək göstəricilərlə başa vuracağıq. Bunun üçün hər birimiz daha çox işləməliyik.

Cənab Prezidentimizi əmin edirəm ki, üzərimizə qoyulmuş bütün vəzifələr vaxtlı vaxtında həyata keçiriləcək, bu yolda bütün imkanlarımızdan istifadə edəcəyik".





**Şamxal ŞƏBİYEV**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ